## Əmək müqavilələrinin rəsmiləşdirilməsinə inzibati nəzarət gücləndirilir

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (ƏƏSMN) yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinin rəis müavini Rauf Tağıyev bizimlə əmək bazarına nəzarətin gücləndirilməsi sahəsində həyata keçirilən tədbirlər barədə fikirlərini bölüşmüşdür.

***- Rauf müəllim, Dövlət Əmək Müfəttişliyi Xidməti işəgötürənlərin işçilərlə əmək müqaviləsi imzalamasını təmin etmək istiqamətində hansı tədbirləri həyata keçirir?***

- Nazirlər Kabinetinin 2012-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclasında Prezident cənab İlham Əliyev əmək bazarına nəzarətin daha da gücləndirilməsini aidiyyəti dövlət qurumları qarşısında vacib məsələlərdən biri kimi müəyyənləşdirib. Nazirlər Kabinetinin iclasından dərhal sonda Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində Vergilər, İqtisadi İnkişaf, Kənd Təsərrüfatı nazirliklərinin, o cümlədən Dövlət Sosial Müdafiə Fondu və Dövlət Əmək Müfəttişliyi Xidmətinin nümayəndələrinin iştirakı ilə geniş məsləhətləşmələr aparıldı. Nəticədə bu qənaətə gəlindi ki, qeyri-leqal əmək fəaliyyətinə cəlbolunma hallarının qarşısının alınması üçün asossiativ tədbirlərlə yanaşı, maarifləndirmə tədbirlərinə də üstünlük verilməli, işəgötürənlərlə müntəzəm görüşlər keçirilməlidir. Ümumi fikir belə oldu ki, əmək bazarına nəzarətin gücləndirilməsi, işəgötürənlə işçi arasında əmək münasibətlərinin rəsmiləşdirilməsi üçün qanunvericiliyin təkmilləşdirilməsi ilə yanaşı, administrativ resurslardan da səmərəli istifadəyə ehtiyac var. Bu və digər tədbirlərin reallaşdırılması üçün, aidiyyəti dövlət qurumlarının nümayəndələrindən ibarət əlaqələndirici qurumun yaradılması təşəbbüsü də müsbət qarşılandı.

Həmin razılaşmanın davamı kimi 2012-ci il iyulun 13-də Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində «Qeyri-leqal məşğulluğun aradan qaldırılması və işçilərin əmək hüquqlarının müdafiəsinin gücləndirilməsi» mövzusunda konfrans keçirildi. Konfransın qərarı ilə aidiyyəti nazirliklərin və sosial tərəfdaşların nümayəndələrinin iştirakı ilə ƏƏSMN-də İşçi Qrupu yaradıldı. İşçi Qrupuna qanunvericiliyə dəyişikliklərlə bağlı zəruri təkliflərin hazırlanması ilə yanaşı, müvafiq dövlət qurumlarının bu sahədəki fəaliyyətini koordinasiya etmək tapşırığı verildi.

- 2012-ci ilin birinci yarısında Dövlət Əmək Müfəttişliyi Xidməti tərəfindən neçə işçi yerinin rəsmiləşdirilməsi təmin edilmişdir?

- Bu müddətdə xidmət əməkdaşları 960 nəfər işçi ilə əmək müqaviləsinin imzalamasını təmin ediblər. İyun ayında bu rəqəm 700, iyul ayında isə 1900 olmuşdur. Avqust ayının ilk ongünlüyündə daha 741 işçi ilə əmək müqaviləsinin bağlanmasına nail olunub. Hər ayın sonunda işəgötürənlərin əmək müqaviləsi imzaladığı işçilər haqqında məlumatlar xüsusi hesabat formalarında Vergilər Nazirliyinə və Dövlət Sosial Müdafiə Fonduna göndərilir.

***- Əmək münasibətlərini rəsmiləşdirməkdən yayınan işəgötürənlərə qarşı nə kimi inzibati tədbirlər həyata keçirilir?***

- İş yerlərinin rəsmiləşdirilməməsi işəgötürənlər üçün ciddi maliyyə sanksiyaları, inzibati cərimələr deməkdir. İnzibati Xətalar Məcəlləsinin 53.1-ci maddəsinə əsasən, Dövlət Əmək Müfəttişliyi Xidməti əmək müqaviləsi (kontraktı) bağlamadan fiziki şəxsləri hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edən işəgötürənləri - vəzifəli şəxsləri 3000 manatdan 5000 manatadək, hüquqi şəxsləri isə 20000 manatdan 25000 manatadək cərimə edə bilər.

2012-ci ilin birinci yarısında qanunvericiliyin tələblərini pozmuş 21 işəgötürənə qarşı 66 min manat məbləğində cərimə tətbiq olunmuşdur. Şübhəsiz, əmək bazarındakı real vəziyyətlə müqayisədə bu, o qədər də böyük rəqəmdir. Lakin unutmamalıyıq ki, qüvvədə olan qanunvericiliyə görə əmək müfəttişlərinin inzibati xəta barədə protokol tərtib etmələri üçün pozuntuya yol vermiş şəxslərin bunu aktla təsdiqləmələri lazımdır. Yəni müqaviləsiz işləyən şəxs bunu rəsmi aktla təsdiqləməli, işəgötürən isə həmin aktı təsdiqləməlidir. Aydın məsələdir ki, maliyyə sanksiyası ilə üzləşəcəyini bilən işəgötürənlər bu aktlara imza atmaqdan imtina edirlər. İşindən məhrum olacağından çəkinən işçi də əksər hallarda belə bir aktın tərtib olunmasında iştirak etmir. Onlar yoxlamalar zamanı həmin müəssisələrdə işlədiklərini danırlar. Əmək müfəttişlərinin həmin işçinin

müqaviləsiz işlədiyini sübut etmək imkanları son dərəcə məhduddur. Vəziyyəti tənzimləmək üçün qanunvericilikdə mütləq müvafiq dəyişikliklər edilməlidir.

***- Yaradılmış İşçi Qrupu əmək bazarına nəzarətin təşkili ilə bağlı hansı tədbirləri nəzərdə tutur?***

- İşçi Qrupu bununla əlaqədar təkliflər hazırlayaraq Nazirlər Kabinetinə təqdim edib. Hələlik layihə müzakirə olduğundan təfərrüatlara varmaq istəməzdim. Yalnız onu deyə bilərəm ki, həmin təkliflərin qəbul olunması əmək bazarına daha səmərəli nəzarətin təşkilinə imkan verəcək.

***- Qanunvericilikdə mülki-hüquqi müqavilə və əmək müqaviləsi arasında prinsipial fərqləri müəyyənləşdirən birbaşa normaların göstərilməməsi işəgötürənlərin işçilərlə əmək münasibəti yaradarkən daha çox mülki-hüquqi müqavilələrə üstünlük vermələrinə şərait yaradır. Sizcə, bu məsələ necə tənzimlənməlidir?***

- Nazirlikdə keçirilən konfransda xüsusi vurğulandı ki, hazırda əmək müqavilələrinin imzalanmaması ilə yanaşı, əmək haqqının real göstərilməməsi, habelə vergilərdən və məcburi dövlət sosial sığorta ayırmalarından yayınmaq məqsədilə işçilərlə əmək müqaviləsi əvəzinə mülki-hüquqi müqavilələrin bağlanması hallarına da geniş rast gəlinir. Hazırladığımız təkliflərin bir qismi də məhz qanunvericilikdə buna imkan yaradan halların aradan qaldırılmasına yönəlib.

***- Dövlət Əmək Müfəttişliyi Xidməti digər dövlət qurumları ilə birgə sahibkarlıq subyektlərində yoxlamalar həyata keçirirmi?***

- Ölkə başçısının ötən il imzaladığı müvafiq fərmana əsasən, sahibkarlıq subyektlərində yoxlamalar yalnız Ədliyyə Nazirliyində qeydə alınmaqla və çıxarış almaqla həyata keçirilə bilər. Ümumilikdə, əmək müfəttişlərinin digər dövlət qurumlarının nümayəndələri ilə birgə yoxlama aparmaq təcrübəsi mövcuddur. Məsələn, insan alveri, məcburi əməyə cəlbetmə halları ilə bağlı əsaslı şübhələr olduğu halda, daxili işlər orqanlarının əməkdaşlarını yoxlamalara dəvət etmişik. Avqust ayının sonunda bir sıra müəssisələrdə mətbuat orqanlarının da iştirakı ilə yoxlamalar həyata keçirmək fikrindəyik. Bu cür yoxlamalar, eyni zamanda, əməyin təhlükəsizliyinin təmini, işçilərin iş saatından artıq işlədilməsi halları ilə bağlı da keçirilir.

Dövlət Əmək Müfəttişliyi Xidməti qeyri-leqal fəaliyyət göstərən xarici ölkə vətəndaşlarının aşkarlanması üçün, Vergilər Nazirliyi və Dövlət Sosial Müdafiə Fondunun əməkdaşları ilə birgə yoxlamalar həyata keçirib. Hesab edirəm ki, bir cox hallarda bu cür əməkdaşlığın reallaşdırılması müsbət nəticələrini göstərir.

***- Belə fikirlər var ki, əmək bazarında muzdla işləyənlərin sayı da reallığa adekvat deyildir...***

- Respublikada muzdla işləyənlərin sayı 1 milyon 380 min 100 nəfər təşkil edir. Əmək qabiliyyətli əhalinin sayı 4 milyon 500 min nəfərdən, məşğul əhalinin sayı isə 4 milyon 300 min nəfərdən çoxdur. Ümumiyyətlə, məşğul əhali dedikdə əmək müqaviləsi və ya mülki-hüquqi müqavilə ilə işləyən, fərdi sahibkarlıqla məşğul olan, eləcə də kəndlərdə fərdi torpaq payı olan insanlar nəzərdə tutulur. Əmək müqaviləsi ilə işləyənlərə dövlət büdcəsindən maliyyələşən qurumlarda çalışanlar, həqiqi hərbi xidmətdə olanlar və s. daxildir.

Respublika üzrə torpaq payı olan insanların sayı 1 milyon 700 min nəfər təşkil edir. Bu insanlar «Məcburi dövlət sığortası haqqında» qanuna əsasən, DSMF-ə məcburi sosial sığorta ödəməlidirlər. Bu halda onlar məşğulluqlarını rəsmiləşdirir və gələcəkdə pensiya almaq hüququ əldə edirlər.

Hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin fərdi uçtotu DSMF-də və Vergilər Nazirliyində aparılır. 2012-ci ilin əvvəlinə qədər fərdi sahibkarların yanında işləyən insanların sayı ilə bağlı Dövlət Statistika Komitəsinə dəqiq informasiyalar təqdim olunmayıb. Ona görə də İşçi Qrupu fərdi sahibkarlar yanında işləyənlərin də dövlət qeydiyyatına alınması üçün mexanizmlərin tətbiqini təklif edib.

***- Sahibkarların bu sahədə maarifləndirilməsi istiqamətində hansı tədbirlər gerçəkləşdirilir?***

- Son aylarda Dövlət Əmək Müfəttişliyi Xidmətinin və sosial tərəfdaşların nümayəndələrinin iştirakı ilə yerlərdə işəgötürənlərlə çoxsaylı görüşlər keçirilir, onlara əmək müqaviləsinin imzalanmasının vacibliyi izah edilir. Bundan əlavə, daha təsirli vasitələrdən biri kimi nazirliyin ssenarisi əsasında xüsusi videoçarxlar hazırlanıb və bir sıra telekanallarda nümayiş olunur.

Digər tərəfdən qanuna görə bütün işəgötürənlər işçilərini sığota şirkətlərində sığortalatdırmalıdırlar. İş yerlərində xəsarət alanların sayının az olması, əmək müqavilələrinin rəsmiləşdirilməsi sığorta şirkətlərinin də marağındadır. Buna görə də bir sıra sığorta şirkətləri də həmin videoçarxların telekanallarda nümayiş etdirilməsinə maliyyə dəstəyi göstərirlər.

Bu gün hər kəs bilməlidir ki, əmək müqaviləsinin imzalanması, eləcə də əmək haqlarının düzgün göstərilməsi gələcəyə etibarlı təminatın yaradılması deməkdir. Əks halda, bir çox insanların gələcək pensiya təminatı ilə bağlı ciddi problemlərinin olması qaçılmazdır.

Samir MUSTAFAYEV